**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI**

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli, 353 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə bir ay müddətində:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

qüvvədə olan qanunvericilik aktlarının "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılması barədə təklif versin;

həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi ilə birlikdə:

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və qaydası barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabineti-nə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş yolu-xucu xəstəliklərin siyahısını hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

həmin Qanunun 6-cı maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin siyahısını hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

həmin Qanunun 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət almaq hüququ verən postvaksinal fəsadların siyahısını hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş ölümə səbəb olan postvaksinal fəsadlara görə birdəfəlik müavinət almaq hüququ olan ailə üzvlərinin siyahısı və həmin müavinətin həcmi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Nazirliklərə və başqa mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, öz normativ hüquqi aktlarının "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırsınlar.

4. Bu sərəncamın 1-ci bəndinin icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin hüquq şöbəsinə, 2-ci bəndinin icrasına nəzarət isə elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinə tapşırılsın.

**Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə**

**Bakı şəhəri, 3 iyul 2000-ci il**

**№ 129**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3061-3062.**